2 aprel 2015-ci il

# İsmayıllıda soyqırımı qurbanlarının xatirəsi anıldı





YAP İsmayıllı rayon təşkilatının rayon icra hakimiyyətinin Basqal qəsəbə ərazi nümayəndəliyinin birgə təşkilatçılığı ilə Basqal qəsəbə tam orta məktəbində ətraf kəndlərin nümayəndələrinin iştirakı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı qurbanlarının anım mərasimi keçirilib.

Tədbiri giriş sözü ilə RİHB-nin Basqal qəsəbəsi üzrə icra nümayəndəsi, ərazi ilk partiya təşkilatının sədri, şura üzvü Novruz Əsədov açaraq qeyd edib ki, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalıb: "Mərhələ-mərhələ gücləndirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılaraq viran edilib".

Tədbirdə çıxış edən YAP İsmayıllı rayon təşkilatının sədri Əzizə Vahabova qeyd edib ki, bədnam qonşularımız olan ermənilər XVIII əsrdən bəri "Böyük Ermənistan" yaradılması barədə əsassız iddialarını gerçəkləşdirməyə çalışmış, bu məqsədlə terrorizm, insanlığa yaraşmayan amansız işgəncələr və vəhşiliklərlə müşayiət olunan soyqırımı və deportasiya kimi dəhşətli beynəlxalq cinayətlərə əl atmış, azərbaycanlıları kütləvi qırğınlara və qətliamlara məruz qoymuşlar.

Ə.Vahabova ermənilər tərəfindən törədilənvəhşiliklərin 90-cı illərin əvvəllərində yenidən təkrarlandığını, Dağlıq Qarabağ və ətraf rayonlarda minlərlə azərbaycanlının qətlə yetirildiyini, bir milyona yaxın həmvətənimizin öz yurd-yuvalarından didərgin salındığını bildirib: "Həmin dövrdə ölkəmizdə baş verən hakimiyyət çəkişmələri və nizami ordunun olmaması bu qırğınların miqyasının daha da böyüməsinə səbəb olmuş, bundan məqsədyönlü şəkildə yararlanan erməni işğalçıları əliyalın əhaliyə qarşı amansız divan tutmuşdur. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra atəşkəs əldə olunaraq ordu quruculuğu sahəsində əsaslı işlər görülmüş, tezliklə nizami ordu yaradılmış, diplomatik sahədə uğurlar əldə olunmağa başlanılmış, Azərbaycanın haqq səsi dünya ictimaiyyətinə çatdırılmışdır. Ulu Öndərin bu siyasəti Onun layiqli varisi, Möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, müasir döyüş sursatı ilə təmin olunmuş güclü ordu yaradılmışdır. Bu gün artıq ölkəmiz dünya miqyasında erməni yalanlarına qarşı hücum taktikasına keçmişdir".

Tədbirdə çıxış edən sakinləri Yeganə Ağayeva, Ağabala Zülfüqarov, Rasim İsmayılov, Sulut kənd ərazi ilk partiya təşkilatının sədri Yavud Əfəndiyev və başqaları 1918-ci ilin mart, aprel və may aylarında yaşadıqları ərazilərdə baş verən erməni vəhşilikləri barədə şahidlərdən öyrəndiklərini xatırlamaqla yanaşı, 31 Mart və Xocalı soyqırımlarının dünya ictimaiyyətinə çatdırılmaq istiqamətində hər il hökümət səviyyəsində mühüm tədbirlərin həyat keçirildiyini qeyd ediblər. Bildirilib ki, xalqımız Cənab Prezidentin məqsədyönlü, milli maraqlarımızı əks etdirən qətiyyətli siyasətini dəstəkləyərək inanır ki, gec-tez üzləşdiyimiz münaqişənin beynəlxalq hüquq normaları əsasında ədalətli həlli təmin olunacaq, işğal altında olan torpaqlarımız azad olunacaq, soyqırımı qurbanlarının intiqamı alınacaq.

Tədbirin sonunda Basqal qəsəbə tam orta məktəbinin şagirdlərinin ifasında soyqırımı qurbanlarının xatirəsinə və vətənimizə həsr olunmuş ədəbi - bədii kompozisiya nümayiş olunub.

***Zümrüd BAYRAMOVA***